## Mədəniyyət və Turizm Nazirliyinin 2010-cu il ərzində gördüyü işlər haqqında

## HESABAT

Mədəniyyət və Turizm Nazirliyi 2010-cu il ərzində öz fəaliyyətini ölkə Prezidentin ölkədə mədəniyyət və turizmin inkişafı ilə əlaqədar qəbul etdiyi fərman və sərəncamları, göstəriş və tapşırıqları və həmçinin cari il üçün təsdiq olunmuş iş planı əsasında quraraq, bir sıra mühüm tədbirlər həyata keçirmiş, Azərbaycan milli mədəniyyətinin və turizm potensialının dünyada tanıdılması, ölkəmizin dünyanın mədəniyyət və turizm məkanına geniş inteqrasiya olunması, milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi və gələcək nəsillərə olduğu kim çatdırılması istiqamətində müəyyən nəticələrə nail olmuşdur.

Hesabat dövrü ərzində ölkə daxilində və onun hüdudlarından kənarda 150 -dən artıq dövlət əhəmiyyətli tədbir həyata vəsiqə almışdır. Bu tədbirlər sırasında xarici ölkələrdə keçirilən Azərbaycan Mədəniyyəti Günlərini, Bakıda xalqımızın milli mədəni dəyərlərindən qaynaqlanan təntənəli Novruz bayramı şənliklərini, II Dünya Müharibəsində qələbənin 65 illiyinə həsr olunmuş kompleks tədbirlər planını xüsusi qeyd etmək olar.

### İNCƏSƏNƏT

2010-cu ildə keçirilən Milli Teatr Festivalı, Bakıda HumanitarƏm əkdaşlıq üzrə I Azərbaycan-Rusiya Forumu, Qəbələ II Beynəlxalq Musiqi Festivalı, Bakı Beynəlxalq Caz Festivalı, Bakı Birinci Beynəlxalq Teatr Konfransı, A.P.Çexov adına Beynəlxalq Teatr Festivalının "İpək y olu" adlı mərhələsi və Vokalçıların Bülbül adına V Beynəlxalq Müsabiqəsi ilin ən yaddaqalan mədəniyyət hadisələrindəndir.

Dünyanın bir çox ölkələrində Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsi artıq bir ənənəyə çevrilmişdir.

Cari ildə Misir Ərəb Respublikasında, İordaniya Haşimilər Krallığında, İran İslam Respublikasında, Kuba Respublikası və Meksika Birləşmiş Ştatlarında, Qətər Dövlətində baş tutan Azərbaycan Mədəniyyət Günləri dünya ictimaiyyətinin böyük marağına səbəb olmuş, Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda tanıdılmasına töhfələr vermişdir.

Bu il həm də dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 125 illiyi münasibəti ilə keçirilən tədbirlər silsiləsi ilə yadda qalmışdır. Bu məqsədlə 18-28 sentyabr tarixlərində Beynəlxalq Musiqi Festivalı təşkil olunmuş, il ərzində Üzeyir bəyin səhnə əsərləri dünyanın müxtəlif ölkələrində oynanılmış, musiqi əsərləri səsləndirilmişdir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binası yüksək səviyyədə təmir-bərpa və yenidənqurma işlərindən sonra istismara verilmişdir.

IV Beynəlxaql Rostropoviç Festivalı da öz əhəmiyyətinə görə 2010-cu ilin ən maraqlı mədəniyyət layihələrindən biridir. Budəfəki festival həm proqramının rəngarəngliyinə, həm də nüfuzlu xarici qonaqların iştirakına görə ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

14-16 aprel tarixlərində Vatikanda görkəmli muğam ustası, Xalq Artisti, YUNESKO mükafatçısı Alim Qasımovun konserti keçirilmişdir.

Martın 20-də böyük mənəvi gücə malik olan, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadan, təbiətin oyanmasının, varlığının canlanmasının müjdəsini verən Novruz bayramı Dənizkənarı Parkda geniş və təntənəli şəkildə qeyd olunmuşdur. Tədbirdə ölkəmizin regionlarını təmsil edən iki mindən çox musiqiçi iştirak etmiş, təsviri və dekorativ tətbiqi sənət, xalq yaradıcılığı sərgiləri, mətbəx və milli oyun sənəti nümayiş olunmuşdur. Bayramda milli folklor kollektivləri iştirak etmişlər.

Hesabat dövründə Azərbaycanın milli musiqi, teatr, ədəbiyyat, rəngkarlıq sahəsində görkəmli sənətkarlarının yaradıcılıqları və ayrı-ayrı əsərlərinin təbliği istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkə rezidentinin müvafiq sərəncamlarına uyğun olaraq martın 15-də Caz Mərkəzində görkəmli Azərbaycan pianoçusu və bəstəkarı Vaqif Mustafazadənin anadan olmasının 70 illiyinə həsr olunmuş konfrans, martın 16-da Heydər Əliyev Sarayında keçirilmiş təntənəli konsert, Rəsul Rzanın 100 illik yubileyi ilə əlaqədar mayın 19-da Dövlət Filarmoniyasında təşkil olunan ədəbi-bədii tədbir böyük əks-səda doğurmuş, mədəni sərvətlərin təbliğində önəmli rol oynamışdır.

Eyni zamanda hesabat ilində Xalq Artisti, görkəmli kamança ustası Fəxrəddin Dadaşovun anadan olmasının – 60, Əməkdar İncəsənət Xadimi Ruhəngiz Qasımovanın – 70, Xalq Artisti Mənsum İbrahimovun – 50, Xalq Artisti, professor Azər Rzayevin – 80, Xalq Artisti Qurban Pirimovun –130 illiyinə həsr olunmuş tədbirlər keçirilmişdir. .

2010-cu il aprelin 30-da Çin Xalq Respublikasının Şanxay şəhərində «EXPO - 2010» Ümumdünya sərgisinin, mayın 1-də Azərbaycan pavilyonunun açılış mərasimi keçirilmişdir. «EXPO - 2010» sərgisinin proqramı çərçivəsində 15 oktyabr tarixində adıçəkilən sərgidə Azərbaycan Milli Günü təşkil edilmişdir. Konsertlərdə Q.Qarayev adına Dövlət Kamera Orkestrinin, Dövlət Rəqs Ansamblının, «Natiq» ritm-qrupunun, Xalq Artisti Azər ZeynalovunƏm əkdar Artistilər İnarə Babayevanın, Təyyar Bayramovun, gənc xanəndə Arzu Əliyevanın uğurlu çıxışları çinlil ərin böyük marağına səbəb olmuşdur.

Noyabr ayının 4-dən 6-dək Ankaranın Bilkənt Universitetində Azərbaycan Respublikasının birinci xanımı Mehriban xanımƏliyevanın iştirakı il ə keçirilən tədbirdə görkəmli xanəndə, Xalq Artisti Alim Qasımovun rəhbərliyi ilə musiqiçilər qrupu konsert proqramı ilə çıxış etmişlər.

«Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramı çərçivəsində 2010-cu il noyabr ayının 8-dən 10-dək Bakıda ilk dəfə keçirilən «Dünya teatr prosesi XXI əsrdə: problemlər, perspektivlər və alternativlər» adlı Beynəlxalq Teatr Konfransına Rusiyadan, Gürcüstandan, Türkiyədən, İrandan, Almaniyadan, İngiltərədən, ABŞ-dan, Kanadadan, Sinqapurdan, Tunisdən, Hon-Konqdan, Avstriyadan, Çindən, Fransadan, Estoniyadan, Belorusdan, Koreyadan, Omandan, Qazaxstandan, Qırğızıstandan, Litvadan, Moldovadan, Küveytdən, Səudiyyə Ərəbistanından, Yunanıstandan-bir sözlə 30 ölkədən 75 nəfər iştirak etmişdir.

Noyabr ayının 16-dan 21-dək Bakıda Vokalçıların Bülbül adına Y Beynəlxalq müsabiqəsinə Azərbaycandan, Rusiyadan, Qazaxıstandan, Özbəkistandan, Ukraynadan, Gürcüstandan, İrandan, Avstriyadan, Çindən, Belorusiyadan 75 vokalçı iştirak etmişdir. Bu il münsiflər heyətinin sədri opera səhnəsinin görkəmli nümayəndəsi, SSRİ Xalq Artisti, Yevgeni Nesterenko olmuşdur. Müsabiqənin uzunillik tarixində ilk dəfə olaraq münsiflər heyətinin tərkibinə nəinki ifaçılar, həm də tanınmış menecerlər, prodüserlər, dünyada ən məşhur opera teatrlarının rəhbərləri qatılmışlar. Müsabiqənin Qran-Pri mükafatı Qazaxıstan ifaçısı Azamat Yeltırquzova verillmişdir.

12-19 dekabr tarixlərində Heydər Əliyev Fondu v ə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda IY Beynəlxalq Rostropoviç Festivalı keçirilmişdir. Festivalda Rusiya, İsrail, Böyük Britaniya, Almaniyadan dünya şöhrətli musiqiçilər və kollektivlər – Yuri Başmet və «Moskva solistləri» kamera ansamblı, Zubin Meta və İsrail Filarmonik Orkestri, Qalina Vişnevskayanın Opera Mərkəzi, Maksim Vengerov (dirijor), Eliso Virseladze (fortepiano), Natalya Qutman (violonçel), Pinkas Sukerman (skripka), Rudolf Buxbinder (foltepiano) və başqaları çıxış etmişlər.

İl ərzində ölkə teatrlarında 20-dən artıq tamaşa hazırlanıb təhvil vermişdir.

Hesabat dövründə çox sayda mədəniyyət, ədəbiyyat və incəsənət xadiminin fəxri adlara layiq görülməsi, Dövlət Mükafatına təqdim olunması, yaradıcı insanları yeni bədii əsərlər yatamağa ruhlandırmışdır.

MƏDƏNİYYƏT SİYASƏTİ

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli Sərəncamı və 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» respublikanın kitabxanalarının komplektləşdirilməsi, informasiyalaşdırması, maddi-texniki bazasının gücləndirməsi, mövcud kitabxanaların əsaslı təmiri, yenidən qurulması, yeni kitabxana binalarının inşası, kitabxana fondlarının təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsi, kitabxana xidmətinin müasir səviyyədə təşkili, kitabxana şəbəkəsinin idarə olunması, kitabxanaların beynəlxalq əlaqələrinin inkişafı və genişləndirilməsi, kitabxana işi sahəsində elmi tədqiqatların aparılması sahəsində köklü dəyişikliklərin həyata keçirilməsinə təkan vermişdir.

Dövlət Proqramının qəbul edilməsindən keçmiş bir il yarım ərzində respublikanın Kitabxana fondları yerli nəşrlərlə, habelə Rusiya Federasiyasında, digər ölkələrdə dünyanın aparıcı dillərində çap olunmuş müasir nəşrlərlə komplektləşdirilmişdir.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində müsbət irəliləyişlər əldə edilmiş, respublikada 38 kitabxananın Veb-saytı yaradılmış, 17 kitabxanada Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi quraşdırılmış, Elektron kataloq və Elektron kitabxanaların yaradılmasına başlanılmışdır.

Kitabxana-informasiya şəbəkəsinin təkmilləşdirilməsi, şəbəkənin yeni dislokasiya xəritəsinin hazırlanması məqsədi ilə monitorinqlər keçirilmiş, respublikanın regionlarında fəaliyyət göstərən maddi-texniki bazası zəif olan, binaları qəza vəziyyətinə düşmüş kitabxana filialları müəyyənləşdirilmiş, onların birləşdirilməsi əsasında müasir kitabxana filiallarının yaradılması məqsədi ilə pilot layihə hazırlanmışdır. Qəbələ rayonunda həyata keçirilmiş ilk layihə nəticəsində müasir tələblərə cavab verməyən 43 kitabxana filialı digər 25 kitabxanaya birləşdirilmişdir.

Gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədi ilə nazirliyin maliyyə dəstəyi ilə 2008-2009-cu illərdə Respublika Gözdən Əlillər Kitabxanası xüsusi nəşrlərlə, "danışan kitablar"la, brayl şriftli nəşrlərlə komplektləşdirilmişdir.

Bununla belə bir çox şəhər və rayon kitabxanalarının komplektləşdirilməsi, informasiyalaşdırması, maddi-texniki bazasının gücləndirməsi, mövcud kitabxanaların əsaslı təmiri, yenidən qurulması, yeni kitabxana binalarının inşası, kitabxana xidmətinin müasir səviyyədə təşkili, kitabxana şəbəkəsində islahatların həyata keçirilməsi üçün lazımi tədbirlər görülməmiş, rayon, şəhər mədəniyyət və turizm şöbələrinin və idarələrinin xərclər smetalarında bu məqsədlər üçün cüzi vəsait nəzərdə tutulmuşdur.

2009-2010-cu illər Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Kitabxanaların avtomatlaşdırılması ili" elan edilməsinə baxmayaraq kitabxanalarda Elektron kataloq və Elektron kitabxananın, Veb-saytların yaradılması sahəsində problemlər mövcuddur. Yevlax, Naftalan və Şəki şəhər, İsmayıllı, Dəvəçi, Biləsuvar, Samux, Lerik, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Xocavənd rayonlarının mədəniyyət və turizm şöbələri, mərkəzləşdirilmiş kitabxana sistemləri bu sahədə konkret tədbirlər görməmiş, mərkəzi kitabxanalarda Veb-saytların yaradılması təmin edilməmişdir. Lənkəran, Mingəçevir, Yevlax, Şirvan, Naftalan şəhər, Ağcabədi, Abşeron, Ağstafa, Ağsu, Astara, Beyləqan, Biləsuvar, Cəlilabad, Dəvəçi, Göyçay, Xaçmaz, Göygöl, Xızı, İmişli, İsmayıllı, Kürdəmir, Qobustan, Quba, Oğuz, Şəmkir, Tərtər, Tovuz, Zaqatala rayon kitabxanalarında Elektron kataloq və Elektron kitabxana yaradılması istiqamətində əməli işlərə başlanmamışdır.

M.F. Axundov adına Milli Kitabxana tərəfindən respublikada dərc olunan çap məhsullarının məcburi nüsxələrinin əldə edilməsi və bu sahədə mövcud problemlərin həll edilməsi üçün "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununu pozan

nəşriyyatlar və poliqrafiya müəssisələri üçün sanksiyalar və cərimələr müəyyənləşdirilməsi vaxtı gəlib çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli Sərəncamının 2-ci bəndinə əsasən yerli icra hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı”nın icrası ilə bağlı əhəmiyyətli işlər görülmüşdür.

2009-cu ildə Azərbaycan Dövlət İncəsənət Muzeyinin Niyazi küçəsi, 11 nömrəli binasında aparılan təmir-bərpa işləri başa çatdırılmışdır. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasının inşası davam etdirilir, muzeyin ekspozisiyanın konsepsiyası üzərində iş aparılır.

Respublikanın bölgələrində yaradılmış Heydər Əliyev muzeyləri və mərkəzləri öz zəngin maddi-texniki bazası ilə seçilir, ümummilli lider Heydər Əliyevin həyat yolunu geniş işıqlandırmaqla yanaşı əhalinin, xüsusən gənclərin mədəni həyatının təşkilində mühüm rol oynayır.

Azərbaycanda ilk dəfə olaraq Musiqi Mədəniyyəti Dövlət Muzeyində “KAMİS” – kompleks avtomatlaşdırılmış muzey informasiya sisteminin proqramı tətbiq edilmişdir.

C. Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin ekspozisiyası elmi, xronoloji və bədii-tərtibat baxımından yeniləşdirilmiş, muzeyin fondunda saxlanılan materialların elektron daşıyıcılarının yaddaşına köçürülməsi üzrə iş aparılmışdır.

“Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Azərbaycan Etnoqrafiya Muzeyinin baş planının hazırlanması üzrə elan edilmiş beynəlxalq müsabiqə baş tutmuş və muzeyin yaradılması istiqamətində konkret işlərə başlanılmışdır.

Goranboy, Yevlax, Balakən, Beyləqan, Yardımlı, Xızı, Cəlilabad, İsmayıllı, Bərdə tarix-diyarşünaslıq muzeyləri üçün yeni müasir tipli binalar inşa edilmiş, bədii tərtibat işləri aparılmışdır. Sumqayıt şəhərinin tarixi, Abşeron, Şabran, Qusar, Şamaxı tarix-diyarşünaslıq muzeylərinin binalarında əsaslı təmir və rekonstruksiya işləri aparılmış, müasir tələblərə cavab verən bədii tərtibat işləri həyata keçirilmişdir.

İmişli Tarix-Diyarşünaslıq Muzeyinin binasında əsaslı təmir işləri başa çatdırılmışdır. Hazırda muzeydə nazirliyin maliyyə dəstəyi ilə bədii tərtibat işləri aparılır. N.Nərimanovun Xatirə Muzeyində əsaslı təmir işləri həyata keçirilir.

Beyləqan, Yardımlı, Balakən, Şabran, Goranboy tarix-diyarşünaslıq muzeylərinin nəzdində açıq səma altında muzeylər yaradılmışdır.

Bununla yanaşı 41 şəhər və rayon muzeyinin yeni müasir standartlara cavab verən bədii tərtibata ehtiyacı var. Ağcabədi, Daşkəsən, Göyçay, Hacıqabul, Göygöl, İsmayıllı rayonunun Lahıc, Qazax, Qax, Lerik, Lənkəran, Şəki tarix-diyarşünaslıq, Mingəçevir şəhərinin Tarixi Muzeyi və digər muzeylərin ekspozisiyalarında təkmilləşdirmə işləri aparılmamış, eksponatlar bərpa edilməmiş, müasir tələblərə uyğun mövzu-ekspozisiya planları hazırlanmamışdır.

Respublikanın 51 tarix-diyarşünaslıq muzeyinin binalarında uzun illər boyu əsaslı təmir işləri aparılmamışdır, bu səbəbdən muzeylərin fəaliyyəti müasir tələblərə cavab vermir. (Ağcabədi, Daşkəsən, Qazax, Lerik, Mingəçevir, Neftçala, Sabirabad, Salyan, Şəki). Mingəçevir, Şirvan tarix-diyarşünaslıq muzeyləri çoxmərtəbəli yaşayış binalarının birinci mərtəbəsində yerləşir, mühəndis kommunikasiya sistemlərinin sıradan çıxması muzey sərvətlərinin qorunmasına təhlükə yaradır. Gəncə və Lənkəran tarix-diyarşünaslıq muzeylərinin yerləşdikləri dövlət tərəfindən tarixi-memarlıq abidələri kimi qorunan binaların bərpa edilməsi üçün konkret tədbirlərin görülmür. Quba Tarix-

Diyarşünaslıq Muzeyinin binası qəza vəziyyətinə düşmüş və nazirliyin müvafiq əmrinə əsasən tamaşaçılar üçün bağlanmışdır.

Ağdaş rayonundakı Maqsud Şeyxzadənin ev-muzeyinin, Gəncə şəhərindəki Nizami Gəncəvinin xatirə muzeyinin binaları uçmuş, eksponatlar isə mədəniyyət evində və məscid binasında yerləşdirilmişdir.

Nazirliyin tarixində ilk dəfə olaraq yaradılmış Mədəniyyət siyasəti şöbəsinin Qeyri-maddi mədəni irs sektoruna Azərbaycan qeyri-maddi mədəni irs sahəsində aparılan işlərin koordinasiyası həvalə edilmişdir. Qısa müddət ərzində bu sahədə bir sıra layihə və tədbirlər həyata keçirilmişdir.

Belə ki, milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən Azərbaycan qeyri-maddi mədəni irs abidələrinin qorunub-saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə "Azərbaycan qeyri-maddi mədəni irs abidələrinin Dövlət Reyestri" tərtib edilir.

Nazirlik tərəfindən Azərbaycanın qeyri-maddi mədəni irs sahəsinin mədəni-siyasi təminat mexanizmlərinin monitorinqi aparılmışdır.

Monitorinqin nəticələri əsasında hazırda "2011-2020-ci illərdə Azərbaycan qeyri-maddi mədəni irsinin qorunmasına dair Dövlət Proqramı", qeyri-maddi mədəni irs subyektlərinin portfolio bankının və "Şəhər (rayon) mədəniyyət mərkəzlərinin və onların filiallarının Dövlət Kadastrı"nın yaradılması, "Muğam-tur, Aşıq-tur, Xalça-tur və Novruz-tur beynəlxalq mədəni-turizm marşrutları"nın təşkil edilməsi, digər konseptual proqram və layihələr üzərində müvafiq işlər həyata keçirilir.

Təsdiq olunmuş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı ilə əlaqədar 2010-cu il üçün Gəncə şəhəri "Azərbaycanın Əfsan ələr Paytaxtı", Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" və Qazax şəhəri "Azərbaycanın Folklor Paytaxtı" elan edilmişdir.

Bununla bağlı hazırlanmış illik tədbirlər planına əsasən, "paytaxt" seçilmiş şəhərlərdə il ərzində nominasiyaya uyğun olaraq təntənəli mərasimlər, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslar, dəyirmi masalar, konsertlər, müsabiqələr, festivallar, sərgilər və sair tədbirlər keçirilmişdir.

## MƏDƏNİ İRS

Azərbaycan Respublikası Prezidentini müvafiq Sərəncamlarının icrası ilə əlaqədar "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət , "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruqlarının mühafizə zonalarını əks etdirməklə sərhədlərin təyin edilməsi məqsədilə komissiyalar yaradılmış, ərazilərə baxış keçirilmiş, xəritələr hazırlanmış, müvafiq təşkilatlarla razılaşdırılmış və hazırda təsdiq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Quba rayonu, "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun özünəməxsusluğunun qorunub saxlanılması üçün qoruq ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, komissiyalar yaradılmış, müvafiq işlər aparılmışdır. Eyni zamanda qoruğun 2010-2015-cı illər üzrə Dövlət İnkişaf Proqramının layihəsi işlənmişdir.

Qala Dövlət tarix-etnoqrafiya, Hacıqabul rayonu "Pir Hüseyn Xanəgahı" tarix-memarlıq və Dəvəçi rayonu "Çıraqqala" tarixi qoruqları 2010-cu ildə yerli büdcədən nazirliyin mərkəzləşmiş büdcəsinə keçirilmişdir.

Şəki şəhəri, Kiçik Dəhnə kəndinin yaxınlığında yerləşən kurqanların tarixi ərazisinin mühafizəsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülmüş, onun xəritəsi hazırlanmış, mühafizə zonaları təyin olunmuş, zəruri lövhələrin hazırlanmış və quraşdırılmışdır.

2010-cu ildə Azərbaycan Respublikası "Avropa memarlıq irsinin qorunması haqqında" Konvensiyaya qoşulmuş, "2010-2015-ci illərdə daşınmaz tarix və mədəniyyət

abidələrinin bərpası və qorunması üzrə Dövlət Proqramı hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Eyni zamanda “2010-2015-ci illərdə tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı üzrə Dövlət Proqramı”nın və “Quba rayonu, “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunda təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı” Tədbirlər planının layihələri hazırlanmışdır.

Ölkə prezidentinin «Gəncə Dövlət-Tarix Mədəniyyət Qoruğunun ərazisindəki “İmamzadə” kompleksinin bərpası ilə əlaqədar tədbirlər haqqında» 2010-cü il 1 mart tarixli Sərəncamına əsasən ölkə əhəmiyyətli memarlıq abidəsi sayılan “İmamzadə“ kompleksindəki abidələrin bərpası və təmiri, həmçinin ətraf ərazinin abadlaşdırılması ilə bağlı layihə sənədləri hazırlanmışdır.

Tovuz rayonunun Aşağı Quşçu kəndinin yaxınlığında Bakı-Tiflis yolundan 500 metr aralıda yerlən, e.ə. V-VI minilliklərə aid edilən Göytəpə yaşayış yerinin mühafizəsinin təmin edilməsi məqsədi ilə “Tədbirlər planı” hazırlanmış və icrası təşkil edilmişdir.

“2010-2015-ci illər üzrə Gədəbəy və Bərdə rayonlarında yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması üzrə Dövlət Proqramı”nın layihəsi hazırlanmışdır.

2010-cu ildə Səudiyyə Ərəbistanı Krallığında keçirilən “Müsəlman ölkələrinin memarlıq irsinin mədəni və iqtisadi inkişafda rolu” adlı 1-ci Beynəlxalq Konfransda, Moldovada keçirilən TÜRKSOY mədəniyyət nazirləri Daimi Şurasının 27-ci toplantısında, YUNESKO-nun Silahlı Münaqişə Zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Komitəsinin Paris şəhərində keçirilən 5-ci sessiyasında, Şərqi Aralıq Dənizi Universitetində 6-cı Aralıq Dənizi: Beynəlxalq Sualtı Foto və Film Festivalı və sualtı tədqiqatlara həsr olunmuş 4-cü Beynəlxalq Simpoziumda, Qazaxıstanda keçirilən “Aral-Xəzər regionunun tarixi-mədəni irsi“ adlı 2-ci Beynəlxalq elmi-praktiki konfransda Nazirlik iştirak etmişdir.

Hesabat dövründə, həmçinin respublika ərazisindəki tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq cari işlər görülmüşdür.

## KİNEMATOQRAFİYA

Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2008-ci il tarixli 2961 saylı Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı»nın icrası ilə əlaqədar kinonun bütün sahələri üzrə fəaliyyətin genişləndirilməsi məqsədilə müəyyən iş görülmüşdür.

2010-cu il ərzində Nazirliyin sifarişi ilə “Azərbaycanfilm” kinostudiyasında «Buta», «Tərsinə çevrilmiş dünya», Əlav ə təsir», “Vəkil haradadır?” filmləri, müstəqil kino şirkətlərində «Sahə», “Ölüm növbəsi”, “Aktrisa”, ”Kabusun gözüylə» filmləri çəkilmişdir. Hazırda «Qisas almadan ölmə», «Ondan yaxşı qardaş yox idi», “Mən evimə qayıdıram”, “Dolu”, “Canlı” bədii filmləri üzərində işlər davam edir. Çoxdan unudulmuş janrda çəkilən “Onun ürəyi” qısametrajlı musiqili nağıl filmi üzərində işlər başa çatmaq üzrədir.

«Salnamə» və “Yaddaş” studiyalarında bir sıra sənədli filmlər çəkilmişdir. Qala kəndinin tarixindən bəhs edən «İz…Qala», “Qafqaz qartalının uçuşu”, “Neft akademiyası”, “Qarabağa gedən yollar”, görkəmli sənət adamlarına həsr olunan silsilənin davamı olaraq Tahir Salahova, Elmira Şahtaxtinskayaya Cənnət Səlimovaya həsr olunmuş filmlər çəkilmişdir. Cizgi filmləri istehsal olunub: «Tırtıl» və «İt sərgisi». «Mozalan» jurnalının iki yeni buraxılışı, “Debüt” studiyasında gənc rejissorlar tərəfindən iki qısametrajlı bədii filmlərin çəkilişləri başa çatdırılmışdır.

Yeni filmlərimizi ölkə tamaşaçılarına təqdim etmək məqsədilə görülən tədbirlər sırasında Azərbaycanın bir sıra bölgəsini əhatə edən Kino Həftəsi keçirilmişdir. Həftə Heydər Əliyev Sarayında “Niyyət” bədii filminin təqdimatı ilə açılmışdır. Baxışlar və

filmlərin yaradıcı heyətləri ilə görüşlər mədəniyyət evlərində, tədris müəssisələrində, hərbi hissələrdə, uşaq evində, islah əmək müəssisələrində təşkil olunmuşdur.

İl ərzində Eldar Quliyevin "İstanbul reysi», Fikrət Əliyevin "Ölüm növbəsi", Elxan Cəfərovun "Əlavə təsir", Çingiz Rəsulzadənin "Kuklalar" bədii filmlərinin, eləcə də "Ümid yeri", Nicat Feyzullayevin "Azərbaycan rəngkarlığının kraliçası", "Qafqaz qartalının uçuşu", Tahir Salahova həsr olunmuş "Qəlbim rəngləri" sənədli filmlərin premyeraları keçirilmişdir.

İlə ərzində Özbəkistanda böyük uğurla "Azərbaycan kinosu həftəsi" təşkil olunmuş, Bakıda cavab tədbiri keçirilmişdir. Bakıda Rusiya kinosu günləri, Avropa filmləri festivalı, Yaponiya, Türkiyə kinosu həftələri təşkil olunmuşdur.

İl ərzində bədii filmimiz bir sıra beynəlxalq kinofestivallarda iştirak etmişdir. Həmçinin gənc kinematoqrafçılarımızın çəkdikləri qısametrajlı bədii filmlər İsveçrə, Rusiya, Ukrayna, Gürcüstan, Çexiya, İran və başqa ölkələrdə keçirilən beynəlxalq kinofestivallarda nümayiş etdirilmişdir.

Hesabat dövründə "Bu meydan, bu ekran" və "Vətən and yerimizdir" kino-layihələri müsabiqələri keçirilmişdir. Gənclər müsabiqəsi çərçivəsində " qısametrajlı bədii filmlər hazırda çəkilir.

Qeyd etmək lazımdır ki, kino sahəsində gənclərlə işə xüsusi diqqət ayrılır. Təkcə onu demək kifayətdir ki, cari ildə debütantların filmlərinə kino istehsalına ayrılan ümumi vəsaitin 63% yönəldilmişdir.

Beynəlxalq əlaqələrin genişlənməsi çərçivəsində Kanada, Fransa və Yaponiyada "Qala", Rusiya və Macarıstanda "Cavad xan", Fransada "Kabusun gözü ilə" bədii filmlərinin, Sloveniyada "Onun adı Mixaylo idi", Almaniyada "Ümid yeri", Sankt-Peterburqda "Qafqaz qartalının uçuşu" sənədli filmlərinin təqdimatlarını qeyd etmək olar.

Dövlət Film Fondu görkəmli kino xadimlərinə həsr olunmuş bir çox bədii axşamlar keçirmişdir.

İlin sonunda dünya şöhrətli fransız kino aktyoru Jerar Depardyenin Bakıya səfəri böyük maraq doğurmuşdur. J.Depardyeni Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qəbul etmiş, qonağın milli kinomuzla bağlı birgə layihələrdə iştirakı barədə fikir mübadiləsi aparılmışdır. J.Depardye bir sıra başqa görüşlər keçirmiş, Bakı və Qəbələ rayonu ilə tanış olmuşdur.

Filmlərin Dövlət reyestrinin fəaliyyəti ilə bağlı yerli və xarici filmlərin qeydə alınması işi davam etdirilmiş. hesabat dövrü ərzində ayrı-ayrı televiziya kanalları, audiovizual məhsulun yayımı ilə məşğul olan şirkətlərin təqdim etdikləri 1836 film qeydə alınmışdır.

## NƏŞRİYYAT, REKLAMIN TƏŞKİLİ VƏ İNFORMASİYA

Hesabat dövründə bir sıra nəşr layihələri həyata keçirilmiş, Nazirlik tərəfindən ölkənin mədəniyyət siyasətinə uyğun olaraq 40-a yaxın kitab nəşr olunmuş, Azərbaycan kitabının təbliği məqsədilə Minsk (10-14 fevral), Paris (25 mart – 1 aprel), London (19-21 aprel) Moskva (1-6 sentyabr) şəhərlərində keçirilən nüfuzlu beynəlxalq kitab sərgi-yarmarkalarında kitablarımız uğurla nümayiş etdirilmişdir.

2-5 iyun 2010-cu il tarixdə Moskva şəhərində MDB ölkələrinin VII Beynəlxalq "Kitab Sənəti" müsabiqəsinə yekun vurulmuş və Azərbaycan kitabının bu müsabiqədə iştirakı həmişəki kimi bu dəfə də uğurlu olmuşdur. Belə ki, müsabiqənin doqquz nominasiyasından üçündə kitablarımız fərqlənmişdir. Mədəniyyət və Turizm Nazirliyinin nəşri olan "Mədəniyyət" kataloqunun 3-cü sayı "Bizim müasirimiz" nominasiyasında III yerə, Miniatür Kitab Muzeyinin nəşri olan miniatür kitablar seriyası "Həmrəylik" nominasiyasında II yerə layiq görülmüş və müvafiq diplomlarla mükafatlandırılmışdır. İlk dəfə olaraq Azərbaycan kitabı – "Təhsil" nəşriyyatının 2010-cu ildə nəşr etdiyi Ç.

Əlioğlunun “Çərçivə” şeirlər toplusu bu beynəlxalq müsabiqənin baş mükafatına – “Qran-Pri”yə layiq görülmüşdür.

Milli Kitabxanada son nüsxəsi qalan dəyərli kitablar müəyyən edilmiş, “Bərpanəşr” seriyası ilə onların çapına başlanmışdır.

“Prezident İlham Əliyev və mədəniyyət” kitabına tələbat nəzərə alınaraq bu qiymətli sənədlər toplusunun təkrar nəşrinə hazırlıq işləri görülmüşdür. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın fəaliyyətindən bəhs edən “Mədəniyyətimizin hamisi” kitabının ingilis dilində variantı üzərində iş başa çatdırılmışdır.

Hesabat dövründə Azərbaycan yazıçı və şairlərinin yubileyləri də diqqət mərkəzində saxlanılmış, onların yaradıcılığına həsr olunmuş müxtəlif ədəbi-bədii tədbirlər təşkil edilmişdir. Buraya yazıçı Sabit Rəhmanın – 100, Xalidə Hasilovanın – 90, Xalq Şairi Rəsul Rzanın – 100, XanımanaƏlib əylinin – 90, Fikrət Sadığın – 80, Gülhüseyin Hüseynoğlunun – 80, Xalq Şairi Fikrət Qocanın – 75, Xalq şairi Zəlimxan Yaqubun – 60, Musa Ələkbərlinin – 60 illik yubileylərinin keçirilməsi daxildir.

“1941-1945-ci illər müharibəsində Qələbənin 65 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqramı”nın icrasına uyğun olaraq Azərbaycan yazıçı və şairlərinin (Musa Yaqub, İlyas Tapdıq, Aqşin Babayev, Maarif Soltan) Abşeron rayonunun ictimaiyyəti ilə görüşü təşkil olunmuşdur.

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasında fəaliyyət göstərən Gənc Ədiblər Məktəbi hesabat dövründə fəaliyyətini davam etdirmiş, məktəbin daha səmərəli işləməsi üçün müvafiq tədbirlər görülmüşdür. GƏM -də 2 illik tədris kurslarının yekununa əsasən müdavimlərə Nazirliyin diplomları təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Yaşlı və gənc nəsil yazıçı, rəssam, və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında” 6 avqust 2007-ci il tarixli, 612 nömrəli Fərmanının 2-ci bəndinin icrasına uyğun olaraq, 50 nəfər yaşlı, 20 gənc yazıçıya təqaüd verilməsi təmin olunmuşdur.

Hesabat dövründə Nazirliyin mətbu orqanlarının – “Mədəniyyət” qəzeti, “Mədəni-Maarif işi” və “Pəncərə – Mədəniyyətə baxış” jurnalları və “Mədəniyyət” kataloqunun fəaliyyəti təmin edilmişdir.

"Mədəniyyət mövzusunda ən yaxşı jurnalist işi" müsabiqəsi 22 iyul - mətbuat günü ərəfəsində başa çatmış, qaliblərə diplom və pul mükafatları verilmişdir.

## ELM VƏ TƏHSİL

Hesabat dövründə mədəniyyət və turizm sahəsində yeni nəslin yetişdirilməsi, yeniyetmə və gənc istedadların üzə çıxarılması üçün kompleks proqram üzrə tədbirlər həyata keçirilmişdir.

2010-cu il 3 fevral tarixində Rumıniyanın Braşov şəhərində Mingəçevir Turizm Kolleci ilə "Andrei Barseanu" İqtisadi Kolleci arasında, 30 noyabr tarixində Bakı şəhərində Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi ilə Belarus Dövlət İncəsənət və Mədəniyyət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır.

2010-cu ildə Uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin II respublika baxışı (2-27 aprel), Polşa Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi ilə birgə Friderik Şopen adına gənc pianoçuların festivalı (11-13 may), Uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin simli alətlər üzrə respublika müsabiqəsi (17-21 may), Uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin xalq çalğı alətləri üzrə II respublika müsabiqəsi (1-15 dekabr) keçirilmişdir.

Cari ildə Kulturoloqların II Milli Forumu (3 iyun), “Mədəniyyətin və mədəni dəyərlərin təbliğində kütləvi informasiya vasitələrinin rolu” adlı beynəlxalq təlim (26-27

oktyabr), "Neft və mədəniyyət – xalqın sərvəti" adlı Beynəlxalq Konfrans (23-24 noyabr) keçirilmişdir

2010-cu il 21 sentyabr tarixində Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayevin iştirakı ilə respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üzrə 2009-2010-cu tədris ilinin yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.

TURİZM

Azərbaycan Respublikası Prezidentin "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqında 6 aprel 2010-cu il tarixli Sərəncamı turizm sahəsinə böyük diqqət və qayğınızın bariz nümunəsidir. Bu sərəncam ölkədə turizm sektorunun dünya standartlarına uyğun şəkildə inkişaf etdirilməsinə təkan verəcəkdir.

2010-cu ilin doqquz ayı ərzində Nazirlik respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə Vyana, İstanbul, Vilnüs, Berlin, Moskva, Kiyev, Pekin, Manama, Dubay, Əl -Küveyt, Paris və Tokio şəhərlərində keçirilən mühüm beynəlxalq turizm sərgilərinə qatılmışdır.

Eyni zamanda, Bakıda "I Ümumrespublika Daxili Turizm Sərgisi", "9-cu Beynəlxalq Turizm Sərgisi" keçirilmişdir.

İl ərzində 38 hüquqi və fiziki şəxs tərəfindən təqdim olunan sənədlərə baxılmış və onlara turizm fəaliyyətinə dair lisenziya verilmişdir. Hal-hazırda respublikada 207 turizm şirkəti fəaliyyət göstərir.

"Hyrcan Touroperator-S" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən fəaliyyət göstərdiyi müddətdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən tədbirlərdə iştirak etməməsini, lisenziya alınması üçün bağlanmış müqavilənin şərtlərinə əməl olunmamasını nəzərə alaraq, turizm fəaliyyətinə verilmiş lisenziya Mədəniyyət və Turizm Nazirliyinin 311 nömrəli 12.06.2010-cu il tarixli əmrinə əsasən ləğv edilmişdir.

Bu müddət ərzində, həmçinin 21 hüquqi və fiziki şəxsə mehmanxana fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. Hal-hazırda respublika ərazisində Mədəniyyət və Turizm Nazirliyindən xüsusi razılıq (lisenziya) almış 295 mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir.

Eyni zamanda, 16 mehmanxana və mehmanxana tipli obyekt dövlət təsnifatından keçirilmiş və onların sayı 77-yə çatdırılmışdır.

Azərbaycanın mövcud turizm potensialının təbliğ edilməsi məqsədilə dünyanın aparıcı televiziya kanallarında "CNN", "Euronews", "Travel Channel", BBC, CNBC, National Geopraphic-də reklam çarxları yayımlanır.

"ABTA" jurnalında, "Upper Reach" və "Forbes" qəzetlərində respublikanın turizm imkanları haqqında reklam səhifəsi yerləşdirilmişdir.

Nazirliyin həyata keçirdiyi əsas tədbirlərdən biri də beynəlxalq mədəni turizm marşrutları vasitəsi ilə Azərbaycanın turizm bazarının beynəlxalq turizm bazarına inteqrasiya etməsidir. Bununla bağlı, Avropa şurasının Kiyev təşəbbüsü layihəsi çərçivəsində "Azərbaycanda şərab yolları" və "Aleksandr Düma Qafqazda" beynəlxalq mədəni turizm marşrutları, "Alman yaşayış məskənləri" adlı beynəlxalq layihələr işlənməkdədir. "Azərbaycanda şərab yolları" layihəsi çərçivəsində "Beynəlxalq Mədəniyyət və Turizm mübadiləsi Assosiasiyası" yaradılmışdır.

16-18 may 2010-cu il tarixində Tokioda keçirilən Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının 6-cı iclasında və iclas zamanı təşkil olunmuş İnvestisiya Forumunda Nazirlik təmsil olunmuşdur. İnvestisiya Forumunda Azərbaycanın turizm potensialının təqdimatı keçirilmişdir.

"Azərbaycan Respublikasının Turizm haqqında yeni Qanun"un layihəsi aidiyyəti üzrə razılaşdırılaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

21-23 sentyabr tarixlərində Rusiyanın Moskva şəhərində keçirilən "İşgüzar turizm: təcrübə, həlli yolları və perspektivləri" adlı beynəlxalq konfransda, 27-29 sentyabr tarixlərində Türkiyənin İstanbul şəhərində QDİƏT-in Turizm və Mədəniyyət sahəsində əməkdaşlıq üzrə işçi qruplarının iclaslarında, 6-8 oktyabr tarixlərində Rusiya Federasiyasının Soçi şəhərində "Qara dəniz regionunda turizm infrastrukturunun inkişafı" mövzusunda keçirilmiş beynəlxalq konfransda, 8-9 oktyabr tarixlərində Özbəkistanın Səmərqənd şəhərində BMÜTT çərçivəsində "İpək Yolu" layihəsi ilə əlaqədar keçirilmiş 5-ci beynəlxalq iclasda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən Gəncə şəhərinin "Azərbaycanın Əfsanələr Paytaxtı" elan edilməsi ilə əlaqədar cari ilin 21-22 oktyabr tarixlərində Gəncə şəhərində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "İslam Konfransı Təşkilatına üzv ölkələrdə qeyri-maddi irsin qorunması və təbliği" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Qeyd olunan konfransda Azərbaycan, Suriya, ƏBƏ, Türkiy ə, Misir, Bəhreyn, Malayziya, İran, Özbəkistan və ISESCO-dan nümayəndələr iştirak etmişdir.

TÜRKSOY, Yaxın Doğu Univeristeti, TİKA Sədrliyi və Türk Xalqları Akademiyasının təşkilatçılığı ilə cari ilin 25-28 oktyabr tarixlərində Şimali Kipr Türk Respublikasında keçirilmiş "Dədə Qorqud və Keçmişdən Gələcəyə Türk dastanları Beynəlxalq Simpoziumu"nda Azərbaycan nümayəndələri iştirak etmişdir.

9 noyabr tarixində Londonda beynəlxalq turizm sərgisi çərçivəsində keçiriləcək "Güclü səyahət və turizm sənayesi forması" mövzusunda BMÜTT Nazirlərinin Sammitində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi təmsil olunması ilə əlaqədar hazırlıq işləri aparılmışdır.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlikləri nəzdində Mədəniyyət Mərkəzlərinin təsis edilməsi istiqamətində Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsi tərəfindən 2006-cı ildən müvafiq işlər aparılır. Bunun nəticəsi olaraq 2010-cu il 2 sentyabr tarixində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı verilmişdir. Sərəncama uyğun olaraq Özbəkistan və Fransa Respublikalarındakı Səfirliklərimizin nəzdində Mədəniyyət Mərkəzləri yaradılmış, Nazirlər Kabinetinə isə Mərkəzlərin nümunəvi əsasnaməsinin Prezident Administrasiyası ilə razılaşdırılaraq iki ay müddətinə təsdiq edilməsi tapşırılmışdır. Daha sonra Nazirlər Kabinetinin 1 dekabr 2010-cu il tarixli Qərarı ilə qeyd edilən Əsasnamə təsdiq edilmişdir.

2010-cu ilin 22-24 iyun tarixində Fransa Respublikasının Paris şəhərində YUNESKO-nun Baş Qərargahında Qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyanın iştirakçı dövlətlərinin Baş Assambleyasının üçüncü sessiyasında Azərbaycan Respublikası YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinə 72 səslə üzv seçilmişdir. 15-19 noyabr 2010-cu il tarixdə Keniya Respublikasının Nayrobi şəhərində keçirilən bu Komitənin V sessiyası keçirilmişdir. Sessiyada "Azərbaycan Respublikasında Azərbaycan ənənəvi xalçaçılıq sənəti"-nin YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi qərara alınmışdır. Bu qərar beynəlxalq səviyyədə xalça sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu bir daha təsdiqləyir.

2010-cu il 3-4 mart tarixində Kuba Respublikasının Havana şəhərində Azərbaycan Respublikası və Kuba Respublikası arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın üçüncü iclası keçirilmişdir.

Ölkəmizin turizm potensialının bütün dünyada təbliğini nəzərdə tutan “Azərbaycanı kəşf edək: Bələdçi kitablar” layihəsi çərçivəsində bir sıra işlər görülmüşdür: Belə ki, Nazirliklə Fransanın və Birləşmiş Krallığın müvafiq nəşriyyatları arasında 2009-cu ildə imzalanmış müqavilələrə əsasən işıq üzü görmüş bələdçi kataloqların Beynəlxalq Turizm Günü ilə əlaqədar 2010-cu il 29 sentyabr tarixində keçirilmiş tədbir çərçivəsində təqdimat mərasimləri keçirilmişdir. Layihə çərçivəsində Birləşmiş Krallığın daha iki nəşriyyatı ilə müqavilələr imzalanmışdır. Həmçinin, 2009-cu ildə Nazirliklə Birləşmiş Ər əb Əmirlikl ərinin müvafiq nəşriyyatı arasında imzalanmış müqaviləyə əsasən işlər davam etdirilməkdədir və bələdçilərin təxminən 2011-ci ilin aprel ayında işıq üzü görməsi nəzərdə tutulur.

## İNVESTİSİYA VƏ TEXNİKİ PROQRAMLAR

2010-cu ildə dövlət büdcəsində dövlət investisiya xərclərinin vəsaiti hesabına tikintisi, təmiri və yenidənqurulması nəzərdə tutulmuş obyektlərin siyahısının layihəsi hazırlanmış, Nazirlər Kabinetinə, Maliyyə və İqtisadi İnkişaf nazirliklərinə təqdim olunmuşdur.
Mədəniyyət və turizm obyektlərinin tikintisi, təmir-bərpası və yenidənqurulması ilə əlaqədar aşağıdakıları qeyd etmək olar:

- Azərbaycan Dövlət Film Fondunun yeni binasının tikintisi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında təmir-yenidənqurma və abadlaşma işləri, başa çatmışdır.
- İncəsənət Muzeyinin keçid korpusunun, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin tikintisi, “Nizami” kinoteatrının binasında təmir-yenidənqurma işləri, Bakı şəhərində Qara Qarayev adına 8 nömrəli musiqi məktəbinin əsaslı təmiri, Ağdam Dövlət Dram Teatrı binasının təmiri və bərpası üzrə tikinti işləri, Şəki şəhərində Aşağı Karvansaranın bərpa işləri davam etdirilir.
- Qobustan Dövlət Tarix-Bədii Qoruğunda muzey və inzibati binanın tikinti işləri, Mingəçevir Dövlət Dram Teatrının binasında təmir-yenidənqurma, “Atəşgah məbədi” Dövlət Tarix-memarlıq Qoruğu üzrə layihələndirmə işləri başa çatmaq üzrədir.
- ”Şahdağ” Qış-Yay Turizm Kompleksinin tikintisi üzrə 9 qaldırıcı qurğunun hazırlanması, alınması, quraşdırılması, xarici elektrik və qaz təchizatı işlərinin yerinə yetirilməsinə, otel binasının və s. obyektlərin tikinti işlərinə başlanılmışdır. Xarici su və kanalizasiya sistemlərinin tikintisi istiqamətində hazırlıq işləri başa çatmışdır.
- Azərbaycan Etnoqrafiya muzeyinin yaradılması üzrə layihələndirmə işlərinin təşkilinə başlanılmışdır.
- Şəki şəhərində M.F. Axundovun ev muzeyində təmir işləri üzrə layihə-smeta sənədləri hazırlanmışdır.
– Salyan rayonunda qəza vəziyyətində olan “Cümə məscidi”nin bərpasına başlanmışdır.
- Gəncə şəhərində “Şah Abbas” Karvansarayının bərpası üzrə layihə sənədləri hazırlanmışdır və mədəniyyət obyektlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün digər tədbirlər həyata keçirilmişdir.

## REGİONLARLA İŞ

Cari ilin doqquz ayı ərzində regionlarda mədəni proseslərin dərinləşməsi, xalqın həyatının yüksək dəyərlərlə zənginləşməsi üçün silsilə tədbirlər görülmüş, demək olar

ki, hər bir rayona elmi, nəzəri, praktiki hamilik göstərilmişdir. Kitabxanaların, muzeylərin fondları yeniləşmiş, onlar müasir avadanlıqlarla təchiz olunmuşlar.

Fevralın 21-də Xırdalan, fevralın 22-də Masallı, fevralın 27-də Mingəçevir və fevralın 28-də Zaqatala şəhərlərində özfəaliyyət rəqs kollektivlərinin «Çal oyna-2010» respublika baxış-müsabiqəsi keçirilmişdir.

Mart ayının 18-də Novruz bayramı, iyun ayının 11-də Milli Qurtuluş günü, sentyabr ayının 07-də Ramazan bayramı, noyabr ayının 11-də Qurban bayramı, dekabr ayının 27-də Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il ərəfəsində Salyan rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri ilə rayon mədəniyyət evində görüşlər keçirilmiş və onlara ərzaq yardımı göstərilmişdir.

Respublikada ilk dəfə olaraq 15-19 mart tarixində Beyləqan, Biləsuvar və Salyan rayonlarında yerləşən qaçqın şəhərciklərində incəsənət ustalarının iştirakı ilə Novruz şənlikləri təşkil olunmuşdur.

Hesabat dövründə “Yeni adlar” ədəbi gənclər arasında ümumrespublika müsabiqəsi keçirilmiş, şeir və nəsr nominasiyaları üzrə 10 nəfər gənc qalib elan edilmişdir. Aprel ayının 30-də Şamaxı şəhərində müsabiqə qaliblərinin təltifolunma mərasimi və ədəbi-bədii gecə təşkil olunmuşdur.

Zaqatalada Mədəniyyət Evi əsaslı təmir olunmuş, Lerikdə Uzunömürlülər Tarix Diyarşünaslıq muzeyi istifadəyə verilmişdir.

İyun ayının 22-dən 30-dək Qaxda, iyul ayının 23-dən 31-dək Şamaxıda rəssamların yaradıcılıq emalatxanası keçirilmişdir.

“2010-2011-ci illər ərzində regionlardakı mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə tədbirlər planı” hazırlanmışdır.